# QƏRAR № 5/18

# 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 yanvar 2025-ci il tarixli 7 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 115 saylı Şəki kənd seçki dairəsindən Kiçik Dəhnə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Qasımov Mahir Təmraz oğlu və Mənəfzadə Qərənfil Qədər oğlu 2025-ci il yanvarın 30-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin 32, 33, 34 və 35 saylı seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 115 saylı Şəki kənd seçki dairəsindən Kiçik Dəhnə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Qasımov Mahir Təmraz oğlu və Mənəfzadə Qərənfil Qədər oğlunun 2025-ci il 30 yanvar tarixli 7 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Katib** | **Arifə Muxtarova** |
| **Katib** | **Mikayıl Rəhimov** |

*30.01.2025*

Azərbaycan.- 2025.- 31 yanvar (№ 21).- S.4.